**AZƏRBAYCAN RESPUBLİKASININ**

**AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN**

**KOLLEGİYASI**

**QƏRAR**

**№** 57-2

**Bakı şəhəri** **28 dekabr 2020-ci il**

**Azərbaycan Respublikası Prezidentinin 27 noyabr 2020-ci il tarixli 2307 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı" nın icrası ilə bağlı işçi qrupların yaradılması barədə**

Azərbaycan Respublikası Prezidentinin 27 noyabr 2020-ci il tarixli 2307 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı" təsdiq edilmişdir. Həmin Sərəncamın 2.1-ci bəndində Milli Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin icrasının əlaqələndirilməsi Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə həvalə edilmişdir. Milli Fəaliyyət Planının 11.1-ci bəndinə əsasən onun uğurla həyata keçirilməsi üçün əlaqələndirici dövlət orqanı işçi qruplar yaradacaqdır. İşçi qruplar prioritet istiqamətlər üzrə tədbirlərin vaxtında və səmərəli icrasına məsul olacaqlar. Milli Fəaliyyət Planının monitorinqi və müntəzəm olaraq qiymətləndirilməsi əlaqələndirici dövlət orqanı tərəfindən həyata keçiriləcəkdir. Monitorinq və qiymətləndirmə aparılarkən tədbirlərin mahiyyəti üzrə icrasına, müvafiq prioritetlə bağlı gözlənilən nəticələrə diqqət yetiriləcək, icra müddətinə uyğunluq yoxlanılacaqdır.

Yuxarıda qeyd olunanlardan irəli gələrək və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"nin 17-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Kollegiyası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı"nın həyata keçirilməsi ilə əlaqədar "Qanunvericiliyin və inistitutsional mexanizmin təkmilləşdirilməsi" və "Məişət zorakılığının qarşısının alınması və zərərçəkmiş şəxslərin müdafiəsi" üzrə işçi qrupları yaradılsın.

2. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova hər iki işçi qrupunun sədri təyin edilsin.
3. Hüquqi təminat şöbəsinə tapşırılsın ki, işçi qrupların tərkibinə müvafiq dövlət orqanlarının (siyahı əlavə olunur), beynəlxalq təşkilatların və qeyri-hökumət təşkilatlarının nümayəndələrini daxil etsin
4. Hüquqi-təminat şöbəsinin Məişət zorakılığının qarşısının alınması üzrə sektoru Milli Fəaliyyət Planının monitorinqi və qiymətləndirməsini həyata keçirsin.
5. Kadr və Kargüzarlıq şöbəsinin müdiri Elmira Qurbanlı bu Qərarın surətini Komitənin aidiyyəti şöbələri ilə tanış etsin.
6. Qərarın icrasına nəzarət Komitənin sədr müavini Sədaqət Qəhrəmanovaya tapşırılsın.

**Kollegiyanın sədri** **Bahar Muradova**